96

**AZƏRBAYCAN RESPUBLİKASININ**

**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 124

**Bakı şəhəri** «03» dekabr 2007 il

**«Doğum evlərində (şöbələrində) doğuşayardım işinin təşkilinin təkmilləşdirilməsi barədə»**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə UNİCEF arasında aparılan Ana və Uşaq Sağlamlığı siyasəti çərçivəsində doğum evlərinin (şöbələrinin) doğuşayardım işinin təşkilinin təkmilləşdirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. «Doğum evlərində (şöbələrində) doğuşayardım işinin təşkili haqqında təlimat», «Doğum evlərində (şöbələrində) yenidoğulmuşlara tibbi yardımın təşkili haqqında təlimat», «Doğum evlərində (şöbələrində) xəstəxanadaxili infeksiyaların profilaktikasına yönəldilmiş tədbirlərin təşkil edilməsinə dair təlimat» təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə, Respublikanın şəhər (rayon) səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olmayan bütün tibb müəssisələrinin rəhbərlərinə isə tövsiyyə edilsin ki, tabeliklərində olan (rəhbərlik etdikləri) doğum evlərində (şöbələrində) doğuşayardım işinin bu əmrlə təsdiq olunmuş təlimatlara uyğun olaraq qurulması təmin edilsin.

3. Əmrin icrasına nəzarət Nazir müavini Sənan Kərimova həvalə edilsin.

**Oqtay Şirəliyev**